**AZAD NƏBİYEV – 65**

**QALİB SAYILOV**
**AMEA Folklor İnstitutu**

# MİLLİ FOLKORŞÜNASLIĞIMIZDA AZAD NƏBİYEV ASSOSASİYASI

Azərbaycanın qədim ənənəyə malik olan şifahi söz sənətinin inkişaf etdiyi və həm də bu inkişafa təkan və istiqamət verən zəngin mədəni arsenalın mövcudluğu və bu zəngin mənəvi yatırımın yetirdiyi ustad alimlər; milli elm və söz tariximizin fərəh və iftixar hissilə xatırlanacaq parlaq səhifələrini təşkil edir. Bu alimlər sırasında bizim müasirimiz, ömür pilləsinin 65-ci zirvəsinə qədəm qoyan, AMEA-nın müxbir üzvü, professor Azad Mövlud oğlu Nəbiyev də var.

Bu ad, bu ünvan Azərbaycan elmi ictimaiyyətinə çoxdan tanışdır. Azərbaycan folklorşünaslıq elminin əlvan palitrası içində Azad müəllimin öz adı, ünvanı, öz elmi üslubu vardır.

İndi də Azad Nəbiyevin elmi-nəzəri görüşlərinə dair.

Cümlənin sonuncu sözü təkcə ənənəvi elmi yazı üslubunun kanonik qəlib tipinin qorunması ilə bağlı deyil. Daha çox, təqdim edilən mətnin həcm məhdudluğu şəraitində qoyulan məsələnin effektiv təhlilinin qənaətbəxş səviyyədə verməyin mümkünsüzlüyü nəzərə alınmaqla, adekvat olaraq, elmi məsuliyyətin mütənasib çevrəyə proyeksiyasını təmin edir.

Ömrünün 40 ildən çoxunu həm milli, həm də ümumbəşəri ədəbi arsenalın (xalq yaradıcılığının) öyrənilməsinə həsr etmiş professor Azad Nəbiyevin nəzəriyyəçi və folklorşünas alim kimi zəngin elmi-ədəbi irsi onlarla elmi məqaləni, beş monoqrafik tədqiqatı, bir neçə tematik elmi-tənqidi məcmuəsini əhatə edir.

Doğum tarixi müharibə faciəsinin reallığından keçdiyi üçün, elmi fəaliyyətinin başlanğıcı xalqın qəhrəmanlıq janrından keçmiş-

dir. Azərbaycan ədəbiyyatının şifahi qaynaqlarından bəhrələnir, xalqın ruhu ilə yüksəlir; alim zəkasından sistemli baxışın qanunauyğunluq, kateqoriya və prinsiplər şəklində elmi auditoriyaya axan işıq seli əsər reallaşmasının 35 ideya və məzmunca fundamental kitab faktından gəlir. Professor A.Nəbiyevin elmi yaradıcılığı folklorun öyrənilməsinin bütün istiqamətlərini və folklorşünaslığın bütün aktual nəzəri problemlərini özündə ehtiva edir. Alimin elmi baxışlar sistemində ilkin ədəbiyyat kültür invariantında, ədəbi fikir kontinumda, sənət xronotopda götürülür; yanaşmanın kauzal üsulu təhlildə immanent sistemi ilə məhdudlaşır. Azad Nəbiyevin baxışları müstəvisində bədii sənət avtonom bir sistemdir, insan fəaliyyətinin kültürəl davranış normasıdır, milli differensial keyfiyyətinə görə etnik substratın – etnoenerjinin akkumilyasiya sistemi ilə işləyən bədii enerjinin fasiləsiz reallaşma faktıdır. Ona görə folklor diaxroniyada kültür invariantının aktual üzvlənmiş paradiqma vahidlərindən biridir. Folklor dilin fikrin və sənətin harmonik sintezində yaranır. Ədəbi material həqiqi sənətə o zaman çevrilir ki, o özündə həqiqəti ehtiva etsin, ruhu və ideyanı daşıya bilsin və onun təqdiminin kamil nümunəsini reallaşdırsın.

Mədəniyyətləri ilbəil çevrələr şəklində – Azərbaycan, Türk, İslam, Şərq, Dünya ardıcıllığı üzrə araşdıran alim insan, ailə, nəsil, xalq, millət, insan formulunda ifadə olunmuş etno və insan cəmiyyəti strukturunu müvafiq şəkildə paralel olaraq folklor kontekstində təhlil edir. Ədəbi materialın məkanı bu tipli təhlillərə darlıq edəndə o, humanitar elmin başqa sahələrinə müraciət edir. Vulqar sosiologiyanı ciddi şəkildə tənqid edən alim ədəbi əsərdə və ədəbi prosesdə sosial konteksti təhlil edərkən daha çox insan və onun fərdi mənəvi keyfiyyətləri, etnik-psixoloji kateqoriyalar üzərində dayanır. Sosialist sosial təsnifat sistemindən fərqli olaraq şifahi ədəbiyyatın kiçik "sosial qrupu" fərddir; fərdin içindəki heç də bütün hallarda harmoniya təşkil etməyən kollektivdir, davranış stereotiplərini şərtləndirən substrat faktorların elementləri kimi səciyyələndirilir. Müsbət dəyərlərin paritet əsasda qorunduğu şəraitdə ağsaqqallıq

institutunun hüquqi funksionallığı və subardinativ statusu "ailə başçısı"nın vicdanın ədalətli idarə sisteminin səlahiyyəti çevrəsindən çıxmır; ruhun və azadlığın funksional iştirakı haqqın səsi ilə sintez təşkil edir. Azad Nəbiyev folkloru mənəviyyat, folklor tarixini mədəniyyət tarixi ilə identik şəkildə götürür, ədəbi düşüncədə və onun reallaşmış həqiqi sənət nümunələri üzərində apardığı elmi təhlillərin nəticəsi kimi mənəviyyatşünaslıq və ya insanşünaslıq elminin nəzəri əsaslarını təqdim edir.

İnsanlığın və mənəvi kamilliyin bütün nikbin keyfiyyətlərini öz şəxsiyyətində, davranış və münasibətlərində birləşdirən və real şəkildə Azərbaycan türkünün əxlaq törəsindən gələn mənəvi dəyərlər xəzinəsinin canlı nümunəsini təcəssüm etdirən Azad Nəbiyevin fikir arsenalını ilbəil, qatbaqat və ardıcıl düzülmüş paradiqma cərgələri elmi dünya modelinin düzbucaqlı koordinat sisteminin bütün rüblərini elə doldurmuşdur ki, mənanın və estetik enerjinin sıxlıq cədvəlində zəkanın atom kütləsinin ağırlığından koordinat oxu kaman kimi gərilib, üfüqi xəttin absisi itib, yerində Vətən adlı məkan yerləşib, şaquli xəttin ordinatı yerində isə Vətəndaş adlı obrazının möhtəşəm abidəsi ucaldılıb. Azad Nəbiyevin metodologiyası və elmi-nəzəri fikri meteorit axını kimi fantastik bir sürətlə zamanın, məkanın və insanın ən qaranlıq guşələrinə intensiv şəkildə nüfuz edir və bu zaman o işıq sürəti və müvafiq işıqla müşayiət olunur. Azad Nəbiyevin "Oxşar dəyərlərin gen qaynağı – genoloji nəzəriyyə" konsepsiyasına görə "Gen-şəcərə, nəsil düşüncəsinin ümumi məzmun görüntüsünü əxz edir. Gen düşüncənin II və III mərhələləri bir-biri ilə sıx, qarşılıqlı əlaqələrdə olub, daimi qarşılıqlı təmasdadır. O, əslində birinci törəniş mərhələsindən qopub, II və III mərhələləri şərtləndirir. Hər biri is ayrı-ayrılıqda IV və V mərhələlərin fəaliyyət funksiyalarının həyatvericilik funksiyalarını təmin edir, qaynaqlandığı həmin çevrədə daimi qarşıqlı fəaliyyətdə davam edib yüksəlir. Lakin hər cür keçmiş yox, yalnız tarixə və yaddaşa çevrilən, özünü sənətdə dərk edən keçmiş özündən sonra da yaşayır, abidələşir, alimin təfsirində folklor (mif, əsatir, əfsanə...) gen

yaddaşı deməkdir. Bu fikrində A.Nəbiyev şifahi ədəbiyyatın mifoloji arxetip qəlibləri üzərində fasiləsiz törəməsi, janr üzvlənməsi, yaddaşda işarələnməsi və funksional fəaliyyətinin ədəbi nəzəri formulunu ifadə edir.

Professor A.Nəbiyev bütövlükdə yeni ideyaları, baxışları və konsepsiyaları ardıcıl və fasiləsiz olaraq ədəbi-elmi ictimaiyyətə təqdim edən, onu təkmilləşdirən, yeniləşdirən, kamilləşdirən möhtəşəm və möhtərəm alimdir.

Professor A.Nəbiyevin elmi yaradıcılığı yeni yaranacaq əsərlərin təhlil və tədqiq obyekti olacağı şübhəsizdir. Qətiyyətlə deyə bilərik ki, Azad müəllimin elmi-yaradıcılıq arsenalının zənginliyi buna imkan verir. Onun uzun illərdir yaratdığı elmi əsərləri həmçinin Azərbaycan folklorunun və folklorşünaslığının ideya fonduna yardım edir. Azad Nəbiyevin elmi araşdırıcılığı təkcə elmi potensialın, elmi arsenalın möhtəşəmliyi ilə səciyyəvi deyil; bu yaradıcılıq nümunələri yüksək istedadın və qabiliyyətin reallaşması kimi təqdirəlayiqdir.